**15-ci Ümumi yığıncaq (17.12.2011)**
**Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının 15- ci Ümumi Yığıncağının**
**P R O T O K O L U**

**AF HOTEL HOVXANI, 17 dekabr 2011-ci il**

**İştirak edir; 84 nəfər**
**Üzvlərin sayı; 163 nəfər**

Koalisiya Şurası tərəfindən Ümumi Yığıncağa gündəlik layihəsi təklif olundu. Gündəlik layihəsinə 4- cü məsələnin (təşkilatı məsələlər) gündəliyin 5- ci məsələsi ilə (Koalisiyanın Əsasnaməsinə əlavə və dəyişikliklərin edilməsi) yerinin dəyişdirilməsi təklif olundu. Təklif qəbul olundu və gündəlik aşağıdakı formada təsdiq edildi.

- Ümumi Yığıncağın Sədarətin, Katibliyin, Mandat Komissiyasinin və Say Komissiyasının seçilməsi
- Şuranın hesabatı
- Monitorinq Qrupunun hesabati
- Təşkilati məsələlər (Şuraya və Monitorinq Qrupuna yeni üzvlərin seçilməsi)
- Koalisiyanın Əsasnaməsinə əlavə və dəyişikliklər layihəsinin müzakirəsi
- Cari məsələlər

Ümumi Yığıncağa sədrlik edəcək sədarətin 3 nəfərdən ibarət olması təklif olundu. Təklif səsə qoyuldu və yekdilliklə qəbul olundu. Sədarətə Qubad İbadoğlu, Sabit Bağırov, İlham Hüseynli, Məlahət Mürşüdlü və Oqtay Gülalıyevin namizədliyi təklif olundu. Sabit Bağırov və Oqtay Gülalıyev öz namizədliyini geri götürdü. Qubad İbadoğlu, İlham Hüseynli və Məlahət Mürşüdlünün namizədliyi səsə qoyuldu və yekdilliklə qəbul olundu.
Katibliyin 3 nəfərdən ibarət olması təklifi qəbul olundu. Oqtay Gülalıyev, Firuzə Əsədullayeva və Nicat Dağlar yekdilliklə Ümumi Yığıncağın katibliyi seçildilər.
Say Komissiyasının 5 nəfərdən ibarət olması təklifi irəli sürüldü və qəbul olundu. Məmmədhəsən Həsənov, Elşad İbişov, Elşən Nəsirov, Hacıbaba Hüseynov, Çingiz Dadaşov yekdilliklə Say Komissiyasının üzvləri seçildi.
Mandat Komissiyasının 3 nəfərdən ibarət olması və Çingiz Dadaşovun, Məmmədhəsən Həsənovun, Rəfael Becanovun komissiyanın üzv seçilməsi yekdilliklə qəbul olundu.
Ümumi Yığıncağın gündəliyi ilə bağlı təklif edildi ki, Koalisiyanın Əsasnaməsinə dəyişiklik məsələsi gündəliyin təşkilatı bölümündən əvvələ keçirilsin. Təklif səsə qoyuldu. 4 nəfər əleyhinə olmaqla təklif qəbul olundu.
Gündəliyin 1- ci məsələsi ilə bağlı Koalisiya Şurasının hesabatı Şuranın koordinatoru Qubad İbadoğlu tərəfindən təqdim olundu. Təqdimatda Koalisiyanın ötən 1 il ərzindəki fəaliyyəti, gördüyü işlər, həyata keçirdiyi layihələr barədə Ümumi Yığıncaq iştirakçılarına ətraflı məlumat verildi. Suallar cavablandırıldı. Şura hesabatının qiymətləndirilməsi səsə qoyularaq yekdilliklə müsbət dəyərləndirildi.
Monitorinq Qrupunun hesabatı Qrup üzvü Əli Quliyev tərəfindnə təqdim olundu, 3 nəfər əleyhinə, 3 nəfər bitərəf, əksəriyyət lehinə olmaqla müsbət qiymətləndirildi.
Koalisiya Əsasnamsəni əlavə və dəyişikliklərlə bağlı öncə Sabit Bağırov təkliflə çıxış etdi. O təklif etdi ki, Şura və Monitorinq Qrupunun keçmiş üzvləri, eləcə də ekspertlərdən ibarət olmaqla Məsləhət Şurası yaradılsın və Şura Koalisiyanın kadr bankı rolunu həyata keçirsin. Təklif ətrafında müəyyən müzakirələrdən sonra təklif səsə qoyuldu. 33 nəfər lehinə, 27 nəfər əleyhinə, 9 nəfər bitərəf olmaqla, qalanları səs saxladı. Təklif keçmədi (Koalisiya Əsasnaməsinə dəyişiklik və ya əlavə üçün yetərsayın olduğu ÜY iştirakçılarının 2/3- i səs verməlidir).
Taleh Əliyev təklif etdi ki, Monitorinq Qrupununu üzvlərinin sayı ilə bağlı Əsasnamədə qeyd olunan 5 rəqəmi götürülsün. Yəni MQ- nun say tərkibi Əsasnamədə qeyd olunmasın, Ümumi Yığıncaq müəyyənləşdirilsin. Təklifə 25 nəfər səs verdi və keçmədi. Onun digər təklifi "Şura və Monitorinq Qrup üzvləri layihə rəhbərləri olmasın təklifi" də Əsasnaməyə daxil edilməsi üçün kifayət qədər (cəmi 29 səs) toplaya bilmədi.

Sahib Məmmədov təklif etdi ki, Əsasnamədə “Monitorinq Qrupunun üzvləri arasından Qrupun sədri və katibi seçilir. Sədr MQ- nu təmsil edir” cümləsi qeyd edilsin. Təklif səsə qoyuldu və əksəriyyət səs verməklə qəbul olundu.
Ümumi Yığıncaqda Koalisiyanın Əsasnaməsinə Taleh Əliyev tərəfindən aşağıdakı təkliflər də irəli sürüldü və qəbul olundu;
- Koalisiyanın üzvü olan hər hansı bir təşkilat il ərzində yalnız Koalisiyanın bir layihəsində maliyyə operatoru ola bilər;
- Koalisiya üzvü olan bir şəxs il ərzində yalnız bir layihəyə rəhbərlik edə bilər.
Ümumi Yığıncağın növbəti məsələsində Şura və Monitorinq Qrupuna seçkilər keçirildi.
Aşağıdakı şəxslərin Koalisiyanın Şura üzvlüyünə namizədliyi irəli sürüldü;

1. Sabit Bağırov
2. Məlahət Mürşüdlü
3. Nicat Dağlar
4. Azər Mehtiyev
5. Əli Quliyev
6. Zöhrab İsmayıl
7. Elçin Abdullayev
8. Sədaqət Paşayeva
9. Razi Nurullayev
10. Mübariz Tağıyev
11. İnqilab Əhmədov
12. Fuad Rəsulov
13. Vüqar bayramov
14. İlqar Hüseynli
15. Nəsrulla Nurullayev
16. Rufiz Qonaqov
17. Şövqiyyə Rəhimov
18. Vüsalə Hüseynova
19. Dünya Sakit
20. Fikrət Cəfərov
21. Rafik Təmrəzov
22. İlham Şabanov
23. Sevil Yüzbaşova
24. Sahib Məmmədov
25. Məhəmməd Talıblı
26. Şaban Nəsirov
27. Əsgər Əhməd
28. Araz Aslanlı

Koalisiyanın Monitorinq Qrupunun üzvlüyünə isə aşağıdakı şəxslərin namizədliyi irəli sürülüb;

1. Mehriban Vəzir
2. Sevil Allahverdiyeva
3. Əliməmməd Nuriyev
4. Azər Rəsulbəyli
5. Sadiq Həsənov
6. Asif Yusifli
7. Qadir İbrahimli
8. Qənimət Məmmədov
9. Niyaz Yaqublu
10. Lazım Umudov
11. Lətafət Məlikova

12. Əlövsət Sadıqov
13. Rəfael Becanov
14. Taleh Əliyev
15. Oqtay Gülalıyev

Mehriban Vəzir və Əliməmməd Nuriyev Yığıncaqda iştirak etmədiyindən və onlarla əlaqə saxlamaq mümkün olmadığından namizədlikləri geri götürüldü. İnqilab Əhmədov, Fuad Rəsulov, Əsgər Əhməd və Rufiz Qonaqov öz namizədliklərini geri götürdülər.
Koalisiyanın Şura üzvlüyünə keçirilən seçkilərdə iştirak edən şəxslər aşağıdakı kimi səs qazandılar;
Sabit Bağırov – 59
Məlahət Mürşüdlü- 36
Nicat Dağlar – 47
Azər Mehtiyev – 46
Əli Quliyev – 43
Zöhrab İsmayıl – 37
Elçin Abdullayev -58
Sədaqət Paşayeva – 15
Razi Nurullayev – 42
Vüqar Bayramov – 60
İlqar Hüseynli – 51
Mübariz Tağıyev – 51
Nəsrulla Nurullayev – 11
Şövqiyyə Rəhimov – 15
Vüsalə Hüseynova – 15
Dünya Sakit – 27
Fikrət Cəfərov – 26
Rafik Təmrəzov – 44
İlham Şabanov – 30
Sevil Yüzbaşova – 40
Sahib Məmmədov – 28
Məhəmməd Talıblı – 42
Şaban Nəsirov – 17
Araz Aslanlı – 32
Koalisiyanın Monitorinq Qrupuna keçirilən seçkilərdə iştirak edən şəxslər aşağıdakı kimi səs qazandılar;
Sevil Allahverdiyeva – 59
Azər Rəsulbəyli – 26
Sadiq Həsənov – 24
Asif Yusifli – 30
Qadir İbrahimli – 21
Qənimət Məmmədov – 16
Niyaz Yaqublu – 21
Lazım Umudov – 6
Lətafət Məlikova – 38
Əlövsət Sadıqov – 26
Rəfael Becanov – 44
Taleh Əliyev – 22
Oqtay Gülalıyev – 46

Beləliklə, Sabit Bağırov, Nicat Dağlar, Azər Mehtiyev, Əli Quliyev, Elçin Abdullayev,

Razi Nurullayev, Vüqar Bayramov, İlqar Hüseynli, Mübariz Tağıyev, Rafik Təmrəzov Məhəmməd Talıblı Koalisiya Şurasının üzvləri seçildilər.
Sevil Allahverdiyeva, Oqtay Gülalıyev, Rəfael Becanov, Lətafət Məlikova və Asif Yusifov Koaliyanın Monitorinq Qrupunun üzvləri seçildilər.
Səsverəmənin nəticələrinin təsdiq olunması təklifi səsə qoyuldu. 4 nəfər əleyhinə, 3 nəfər bitərəf olmaqla əksəriyyət nəticələrin təsdiq olunmasına səs verdi.
Cari məsələlərdə Oqtay Gülalıyev təklif etdi ki, neft gəlirlərinin səmərəsiz və qeyri- şəffaf xərclənməsi ilə bağlı Ümumi Yığıncaq adından bəyanat qəbul olunsun. O bəyanatın layihə varinatını təqdim etdi. Bəyanat ümumən qəbul edilərələk əlavə və düzəlişlərin edilməsi Şuraya həvalə edildi.
Bununla da Ümumi Yığıncaq öz işini başa çatdırdı.
Yığıncağın sədarəti;
Qubad İbadoğlu
İlham Hüseynli
Məlahət Mürşüdlü

Yığıncağın katibliyi;
Oqtay Gülalıyev
Firuzə Əsədullayeva
Nicat Dağlar